Axundov Fuad Natiq oğlu,
Bakı Dövlət Universitetinin Cinayət prosesi kafedrasının doktorantı
E-mail: fuad.akhundov@mail.ru
Ünvan: Bakı, Akademik, 33 Zahid Xəlilov küçəsi

UOT 343.1.
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.1175

HAKİMİN XÜSUSİ STATUSU KONTEKSTİNDƏ ONUN MÜSTƏQİLLİYİ

Açar sözlər: *hakim, status, elementlər, müstəqillik, toxunulmazlıq, dəyişməzlik, hüquqlar, vəzifələr, məsuliyyət, təminatlar.*

Ключевые слова: *судья, статус, элементы, независимость, неприкосновенность, несменяемость, права, обязанности, гарантии.*

Key words: *judge, status, elements, independence, inviolability, irremovability, rights, obligations, guarantees.*

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin hakimiyyətlərin bölgüsü prinsipi əsasında təşkil edilməsi konstitusion səviyyədə təsbit edilmiş müddəadır (Konstitusiyanın 7-ci maddəsinin III hissəsi). Bu konstitusion prinsipə əsasən, Milli Məclis qanunvericilik, Prezident icra hakimiyyəti, məhkəmələr isə məhkəmə hakimiyyətini həyata keçirir. Baxılan prinsipin adında *bölgü* terminindən istifadə edilsə də, bu, hakimiyyətdə pərakəndəlik, hakimiyyətin parçalanması və hakimiyyət qollarının bir-birindən təcrid edilmiş şəkildə fəaliyyət göstərməsi anlamı kəsb etmir. Əksinə, Konstitusiyanın 1-ci maddəsinin I hissəsi və 7-ci maddəsinin IV hissəsi bir arada gözdən keçiriləndə tamamilə aydın olur ki, dövlət hakimiyyəti vahid mənbəyə malikdir və bu mənbə Azərbaycan xalqıdır, hakimiyyət qolları isə öz funksiyalarını bir-biri ilə qarşılıqlı fəaliyyət prinsipi əsasında realizə edirlər. Başqa sözlə, hakimiyyət qollarının sayı üç olsa da, onların hər biri vahid xalq hakimiyyətinin həyata keçirilməsinə xidmət edir. Hakimiyyətlərin bölünməsi prinsipinin formal deyil, real xarakter kəsb etməsi üçün hakimiyyətin hər bir qolu digər iki qola münasibətdə müstəqil olmalı, digər hakimiyyət qollarının səlahiyyətlərinə iddialı olmamalı, eləcə də, öz müstəsna səlahiyyətlərini hakimiyyətin digər qolları ilə bölüşdürməməlidir. Məsələn, məhkəmələr hüququn tətbiqi təcrübəsində qanunların kazual təfsirini verə bilsələr də, qanunverici orqanın iradəsindən kənar yeni normalar yaratmamalı, qanunların Parlamentin iradə ifadəsi kimi təzahür edən məzmununu təhrif etməməlidirlər. Digər bir misala baxaq. Məsələn, bəzi hüquq sistemlərində, eləcə də, bizdə icra hakimiyyəti qolunu təmsil edən istintaq və təhqiqat orqanları bir sıra hallarda cinayət işlərinin taleyini məhkəməyədək icraatda həll edirlər və cinayət işlərini müxtəlif əsaslarla xitam edirlər. Lakin bu, heç də işin mahiyyəti üzrə həllinə dair müstəsna məhkəmə funksiyasının icra hakimiyyəti orqanları ötürülməsi anlamına gəlmir. Hətta belə hallarda da məhkəmə hakimiyyəti məhkəmə nəzarəti qaydasında xüsusi icraat vasitəsilə bu prosedurların qanuniliyi və əsaslılığı üzərində

özünəməxsus prosessual funksiyasını yerinə yetirmək imkanlarını özündə saxlayır.

Siyasi-hüquqi təlimlər nəzəriyyəsinə *trias politica* konsepsiyası, yəni hakimiyyətin müasir dövrdə bizə məlum olan üç qola bölünməli olması ideyası kimi Monteskyö tərəfindən gətirilmiş olsa da, hakimiyyətin bir əldə cəmlənməsinin qarşısının alınmasının ən səmərəli üsulu kimi hakimiyyətin bölgüsü prinsipi hələ eramızdan əvvəl də mövcud olmuş, sadəcə olaraq, retrospektivdə bu ideya çərçivəsində hakimiyyətin fərqləndirilməli olan qollarının sayı və mənsubiyyəti haqqında kifayət qədər fərqli olmuşdur [16, s. 77-78; 17, s. 61-63].

Müasir dövrdə *trias politica* konsepsiyası dörd əsas element üzrə xarakterizə edilə bilər: vahid hakimiyyətin bir-birindən müstəqil və müstəsna (başqa hakimiyyət qolu ilə bölüşdürülməyən, başqa hakimiyyət qoluna ötürülməyən) səlahiyyətlərə malik olan, lakin bir-birinin üzərində çəkindirmə və tarazlaşdırma mexanizmlərinə malik qanunyaratma, icraetmə və ədalət mühakiməsi qollarına bölgüsü. Burada birinci element hakimiyyət qollarının sayı və növləri, ikinci element onların bir-birindən müstəqil olması, üçüncü element onların hər birinin müstəsna səlahiyyətlərinin dairəsi, dördüncü element çəkindirmə və tarazlaşdırma mexanizmidir [3, s. 395-396; 5, s. 44-45].

Qeyd edilən elementlər üzrə məhkəmə hakimiyyətinin vəziyyətinə baxdıqda, müşahidə olunur ki, o, hakimiyyətin üç qolundan biri olub, dövlət hakimiyyətinin həyata keçirilməsi formalarından biri kimi çıxış edir. Məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin tərkib hissəsi olduğu üçün, o, dövlətin adından çıxış edir (Azərbaycan Respublikasının adından hökmlər, digər məhkəmə aktları qəbul edir), dövlətin məcburiyyət qüvvəsi ilə təmin olunur (məhkəmələr tərəfindən qəbul edilmiş aktların icrası hamı üçün məcburi hesab edilir), onun subyektləri (hakimlər) və məzmununu təşkil edən əsas fəaliyyət (ədalət mühakiməsi) dövlət hakimiyyətinin bir hissəsi kimi hüquqi mühafizə altına alınır (CM-də ədalət mühakiməsi əleyhinə cinayətlərin dövlət hakimiyyəti əleyhinə cinayətlərə aid edilməsi və s.).

Məhkəmə hakimiyyətinin müstəqilliyi, ilk növbədə, onun özünüidarə funksiyasına malik olması, hakimiyyətin digər qollarından inzibati, maliyyə və s. asılılığının olmamasında, onlar qarşısında hesabatlı olmamasında təzahür olunur.

Məhkəmə hakimiyyətinin əsas xarakterik xüsusiyyətlərindən biri onun müstəsna səlahiyyətləridir. Doğrudur, bəzən məhkəmə hakimiyyəti orqanı digər hakimiyyət qolları ilə paralel funksiyalar həyata keçirə bilər. Məsələn, bunun ən bariz nümunəsi qismində Konstitusiyanın 60-cı maddəsi çıxış edir. Həmin maddə insan hüquq və azadlıqları üçün paralel olaraq, həm məhkəmə, həm də inzibati təminat nəzərdə tutur. Bu, onunla əlaqədardır ki, insan hüquq və azadlıqlarının təminatı məhkəmə hakimiyyətinin müstəsna səlahiyyətinə aid deyildir. Lakin bunun tam əksinə olaraq, ədalət mühakiməsinin həyata keçirilməsi, yəni mülki, inzibati, kommersiya və cinayət işlərinin mahiyyəti üzrə həlli, eləcə də, işin mahiyyəti üzrə həlli funksiyası ilə əhatə olunmasa da, qanunla müstəsna olaraq, məhkəmə hakimiyyətinin səlahiyyətlərinə verilmiş xüsusi icraatların həyata keçirilməsi (məsələn, xarici dövlətlərin hökm və ya digər qərarları, yalnız məhkəmə hakimiyyəti tərəfindən tanına bilər, tibbi xarakterli məcburi tədbirlər yalnı məhkəmə hakimiyyəti tərəfindən tətbiq edilə bilər və s.) və konstitusiya nəzarətinin (konstitusiya ədalət mühakiməsinin) realizə edilməsi müstəsna olaraq, məhkəmə hakimiyyətinin səlahiyyətlərinə aiddir.

Nəhayət, nəzərə almaq lazımdır ki, hakimiyyətin müstəqil qolu olaraq, məhkəmə

hakimiyyəti digər iki qol üzərində, digər iki qol isə məhkəmə hakimiyyətinin üzərində çəkindirmə və tarazlaşdırma mexanizminə malikdir. Belə ki, icra və qanunvericilik hakimiyyəti məhkəmə hakimiyyətinin, yəni hakim korpusunun formalaşmasında və vəzifəyə təyinatında bilavasitə iştirak edir, məhkəmə hakimiyyətinin özünüidarə funksiyasının icrasında (Məhkəmə-Hüquq Şurasında) isə təmsil olunur. Məhkəmə hakimiyyəti məhz qanunvericilik hakimiyyətinin qəbul etdiyi qanunlar əsasında təşkil və idarə edilir. Məhkəmə hakimiyyəti öz müstəsna səlahiyyətlərini də məhz qanunvericilik hakimiyyətinin qəbul etdiyi qanunlar əsasında həyata keçirir. Başqa sözlə, məhkəmə hakimiyyətinin müstəsna səlahiyyətlərinin dairəsi və həyata keçirilməsinin prosessual qaydaları qanunvericilik hakimiyyəti tərəfindən müəyyən edilir. Məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı qismində isə dövlət başçısı özü çıxış edir (Konstitusiyanın 8-ci maddəsinin IV hissəsi).

Məhkəmə hakimiyyəti isə, öz növbəsində, konstitusiya ədalət mühakiməsi vasitəsilə qanunvericilik hakimiyyəti tərəfindən (eləcə də icra hakimiyyəti tərəfindən) qəbul edilmiş normativ-hüquqi aktların Konstitusiyaya (digər qanunlara) uyğunluğu üzərində konstitusiya nəzarəti həyata keçirir, konstitusiya nəzarətinin nəticələrindən asılı olaraq, normativ-hüquqi aktı (onun konkret struktur elementini) qüvvədən düşmüş hesab edir, rəsmi təfsir edir, yaxud parlamentə müəyyən edilmiş hüquqi qeyri-müəyyənliyin aradan qaldırılması istiqamətində tövsiyələr verir və s. Konstitusiya ədalət mühakiməsi vasitəsilə məhkəmə hakimiyyəti qanunvericilik hakimiyyəti üzərində özünəməxsus çəkindirmə və tarazlaşdırma mexanizmini həyata keçirir. Bundan başqa, Parlamentə seçkilərin nəticəsi də məhkəmə hakimiyyəti tərəfindən yoxlanılır və təsdiq edilir ki, bunu da müəyyən mənada, məhkəmə hakimiyyətinin qanunverici hakimiyyət üzərindəki çəkindirmə və tarazlaşdırma mexanizminin elementi kimi dəyərləndirmək olar.

İcra hakimiyyətinə münasibətdə isə məhkəmə hakimiyyəti çəkindirmə və tarazlaşdırma mexanizmini inzibati ədalət mühakiməsi (icra hakimiyyəti orqanları tərəfindən qəbul edilmiş qanunsuz və əsassız aktların ləğv edilməsi, bu orqanlar üçün icrası məcburi olan öhdəliklərin müəyyən edilməsi və s.), icra hakimiyyəti aktları üzərində konstitusion nəzarət, dövlət başçısının impiçmenti prosedurunda iştirak, prezident seçkilərinin yekunlarının rəsmən elan edilməsi və s. bu kimi elementlər vasitəsilə realizə edir.

Hakimlər xüsusi statusa malikdirlər və bu xüsusi status məhkəmə hakimiyyətinin özünün yüksək statusundan irəli gəlir. Bu anlamda hakimin statusunu da yüksək status hesab etmək mümkündür.

Hakimə xüsusi statusun verilməsi onun həyata keçirdiyi fəaliyyətin xüsusiyyətləri ilə bağlıdır. Belə ki, hakim, ilk növbədə, məhkəmə hakimiyyəti subyektidir və bu anlamda dövlət hakimiyyətinin realizəsi bu işlə məşğul olan subyektə xüsusi və onu digər subyektlərdən fərqləndirən yüksək statusun yerilməsini şərtləndirir. İkincisi, hakim ədalət mühakiməsini həyata keçirən subyektdir. Ədalət mühakiməsi digər dövlət hakimiyyət orqanlarının həyata keçirdiyi fəaliyyət növlərindən bir sıra spesifik əlamətlərinə və müstəsna xarakterinə görə fərqlənir. Belə ki, ədalət mühakiməsinin həyata keçirilməsi funksiyası hakimiyyətin başqa qollarına ötürülə bilən deyil (*non-delegable*), müstəsna xarakterlidir; ədalət mühakiməsi hakimiyyətin digər qollarının fəaliyyəti ilə müayisədə daha nümayişkəranə, daha təntənəli, simvolizmə daha çox yer verməklə keçirilir (hakimlərin, vəkillərin rəngi və biçimi ilə xüsusi məna kəsb edən cübbə, hətta bəzi ölkələrdə xüsusi parik daşımaq öhdəliyi, məhkəmə zala daxil olarkən, yaxud

məhkəmə qərarı elan edilərkən hər kəsin ayaq üstə olması, hakimə xüsusi müraciət forması və s.); ədalət mühakiməsi aktlarının icra edilməsi ən ağır məsuliyyət (cinayət məsuliyyəti) təhdidi altında təmin edilir və s. [1, s. 17; 2, s. 78-79; 18, s. 138]

Bütün bu amillər ədalət mühakiməsini həyata keçirən subyektlərə yüksək statusun verilməsini şərtləndirir. Yeri gəlmişkən, qeyd etmək istərdik ki, hakimin yüksək statusu yalnız hüquqi status kontekstində deyil (hakimə verilmiş hüquqi xarakterli imtiyaz və təminatlar baxımından), həm də sosial kontekstdə təmin edilməlidir. Başqa sözlə, ədalət mühakiməsinin səmərəliliyi üçün hakimin rifahı və layiqli həyat şəraiti təmin edilməli, hakim dövlət tərəfindən sosial müdafiə ilə təmin olunması, zəruri hallarda hakim barəsində xüsusi təhlükəsizlik tədbirləri görülməli, hakimlərə ictimaiyyət tərəfndən hörmət təmin edilməli, hakimlər hər cür neqatic stiqmatizasiyadan qorunmalıdır və s.

Doktrinada hakimin xüsusi statusunun əsas elementləri qismində onun müstəqilliyi, toxunulmazlığı, apolitikliyi, dəyişilməzliyi, hüquq və vəzifələrinin sistemi, məsuliyyətə cəlb edilməsinin xüsusi prosedurları, dövlət müdafiəsi göstərilir [4, s. 83-84; 6, s. 403; 7, s. 35; 15, s. 69-70]. Bəzi mənbələrdə hakmin statusunun əsas xüsusuyyəti kimi onun konstitusion xarakter kəsb etməsi qeyd edilir [9, s. 5-6].

Hakimin müstəqilliyi onun xüsusi (yüksək) statusunun əsas elementlərindən biri olsa da, digər elementlərlə müqayisədə onun müəyyən qədər ilkinliyi, prioritetlyi təəssüratı yaranır. Hakimə ədalət mühakiməsi funksiyasını həyata keçirməyə imkan verən xüsusi (yüksək) statusunun ayrı-ayrı elementlərinin mahiyyətinin müəyyən edilməsinə cəhd etdikdə, belə müşahidə edilir ki, onlar, bir qayda olaraq, hakimin müstəqil olmasına, hakimin müstəqil olması isə son nəticə olaraq, ədalət mühakiməsinin qanuni, əsaslı və ədalətlə həyata keçirilməsinə xidmət edir.

Belə ki, hakimin toxunulmazlığı cinayət başında yaxalanma halları istisna olmaqla, hakimin hər cür prosessual məcburiyyətə məruz qalmasını, o cümlədən, məhkəmə hakimiyyətinin özünüidarə orqanının razılığı olmadan onun barəsində cinayət təqibinin həyata keçirilməsini istisna edir. Prosessual məcburiyyətə və cinayət təqibinə qarşı belə bir immunitetin olması hakimin hüquq-mühafizə orqanlarının qanunsuz təsirindən səmərəli qorunma vasitəsidir. Bu immunitetin mövcudluğu hakimə həyata keçirdiyi prosessual fəaliyyətə görə hüquq-mühafizə orqanları tərəfindən qanunsuz təqibə məruz qalmayacağına dair əminlik, arxayınlıq verir və o, öz prosessual funksiyalarını müstəqil şəkildə, yəni hüquq-mühafizə orqanlarının bəyənəcəyi, gözlədiyi, arzuladığı şəkildə deyil, öz daxili inamına görə doğru hesab etdiyi şəkildə həyata keçirmək üçün əlavə təminat qazanır.

Hakimin apolitikliyi ona ölkə iqtidarı, müxalifət tərəfdarları və ya bitərəf kəsimə münsibətdə eyni yanaşmanı sərgiləməyə imkan verir. Hər hansı siyasi partiya üzvü, siyasi təşkilat mənsubu olduğu müddətcə hakimin öz vəzifələrini icra etməsi yolverilməz olduğu üçün, hakimin apolitikliyi həm onun qərəzsizliyinin və dolayısı ilə müstəqilliyinin təminatı, həm də öz vəzifələrinin icrasına buraxılması üçün mütləq əməl edilməli olan şərtdir.

Hakimin dəyişməzliyi ona icraatında olan konkret işə baxdığı müddətcə həmin işdən kənarlaşdırılmaya, işi başqa hakimin icraatına verməklə, ilk hakimin qanuni, əsaslı, ədalətli hesab etdiyi nəticəyə deyil, fərqli nəticəyə nail olmaya qarşı inzibati-siyasi təsirlərdən immunitet verir. Hakim yalnız qanunla müəyyən edilmiş əsaslar və prosedurlar çərçivəsində öz vəzifəsinin icrasından kənarlaşdırıla bilər. Bu əsas və prosedurlarla bağlı hüquqi müəyyənlik dərəcəsi

nə qədər yüksək olarsa, onlardan hakimə təsir vasitəsi kimi isitifadə etmək imkanları da bir o qədər azalar.

Hakimin hüquq və vəzifələrinin sistemi onun xüsusi (yüksək) statusunun əsas tərkib elementləridir. Hakimlər həm tutduqları vəzifədən irəli gələn, qanunla bütün hakimlərə verilən hüquq və vəzifələrə, həm də bilavasitə ədalət mühakiməsinin həyata keçirilməsi vacib olan hüquq və vəzifələrə malikdirlər. Sonuncu hüquq və vəzifələr prosessual hüquq və vəzifələr olub, konkret ölkənin ədalət mühakiməsi sistemində hakimin sübutetmədə aktivlik dərəcəsini, diskresion səlahiyyətlərinin həcmini, mülahizə müstəqilliyini və s. müəyyən edir.

Hər hansı məsuliyyətə cəlb edilmənin yalnız qanunla müəyyən edilmiş əsaslar, səbəblər və prosedurlar əsasında mümkünlüyü hakimi daha çox sistemdaxili təsir və təzyiqlərdən qorumaqla, ona prosessual fəaliyyətinə, prosessual iradə ifadəsinə və daxili inamına görə qərar qəbul etməsinə görə intizam və s. məsuliyyətə cəlb edilmək təhdidi barədə narahat olmadan müstəqil fəaliyyət göstərmək imkanı verir.

Hakimin dövlət müdafiəsi (sosial müdafiə və təhlükəsizliyin təmin edilməsi baxımından) onun rifahının, layiqli həyat şəraitinin, şəxsi təhlükəsizliyinin təmin edilməsi hesabına hakimi korrupsiya risklərindən, həyat və sağlamlığına təhdidlərdən və s. bu kimi neqativ hallardan qorumaqla ədalət mühakiməsinin hakim tərəfindən müstəqil olaraq həyata keçirilməsi üçün zəmin yaradır.

Hakimin müstəqilliyi ideyasına geniş və dar anlamlarda baxmaq mümkündür. Əlbəttə, bu zaman mütləq qeyd edilməlidir ki, bu ideyaya dar və geniş mənalarda yanaşma, nəzəriyyədə prinsip etibarilə mümkün və geniş yayılmış olsa da, belə bölgü son dərəcə şərti xarakter kəsb edir və müxtəlif vəzifələrin həlli, məsələn, qanunvericiliyin konkret normasının təfsiri, yaxud hakimin müstəqilliyinin konkret aspektlərinin elmi tədqiqatı və s. bu kimi vəzifələrin həlli üçün səmərəlidir. Nəzərə almaq lazımdır ki, hakimin müstəqilliyi ideyası geniş anlamda dərk edilməzsə, bu müstəqilliyin ayrı-ayrı aspektləri də öyrənilə bilməz. Eynilə, hakimin müstəqilliyi ideyasının dar mənada dərk edilməsi baş verməzsə, yəni bu ideyanın maddi-hüquqi, prosessual-hüquqi, eləcə də, hüquqi fəlsəfəsi, sosial qanunauyğunluqları və s. bu kimi aspektləri ayrı-ayrılıqda dərk edilməzsə, onun geniş anlamda da öyrənilməsi mümkünsüz olar.

Belə ki, ən geniş anlamda hakimin müstəqilliyi ideyasını onun mənsub olduğu və təmsil etdiyi hakimiyyət qolunun müstəqilliyi ideyası ilə eyniləşdirmək mümkündür. Başqa sözlə, ən geniş anlamda hakimin müstəqilliyi dedikdə, məhkəmə hakimiyyətinin müstəqilliyindən irəli gələn bütün müddəaların ayrılıqda götürülmüş bir hakimin fəaliyyətinə tətbiq edilməsi başa düşülə bilər.

L.Y. Kravtsova qeyd edir ki, məhkəmə hakimiyyətinin müstəqilliyinə dair konstitusion prinsip bu hakimiyyət qolunun fəaliyyətinin təşkil edilməsinin prinsiplərindən biri olub, məhkəmə hakimiyyətinin digər prinsiplərinə münasibətdə prioritetə və inteqrasiya edici rola malik olmasına dəlalət edən bir sıra əlamətlərə malikdir. Bu əlamətlərdən *birincisi* hakim tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi zamanı onun üzərində inzibati nəzarətin yolverilməzliyi ilə bağlıdır (hakimlərin yalnız qanuna tabe olmalarına dair müddəa). Hakim tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi zamanı onun üzərində inzibati nəzarətin yolverilməzliyi hakim tərəfindən konkret işlərə baxılarkən ona işin mahiyyəti üzrə həlli ilə əlaqədar hər hansı bir göstərişin verilməsinin və hakimdən konkret işə baxması ilə əlaqədar ədalət mühakiməsi gedişində hesabat (izahat) tələb edilməsinin istisna olunmasını, eləcə də hakimin toxunulmazlığı-

nı təmin edir. İkinci əlamət bu prinsipin universallığı ilə bağlıdır. Bu, o deməkdir ki, məhkəmə fəaliyyətinin təşkil edilməsi zamanı onun bütün subyektləri məhkəmələrin müstəqilliyinin realizə edilməsinə dair təminatların yaradılması zərurətindən çıxış etməlidirlər. Üçüncü əlamət isə məhkəmə hakimiyyətinə və ədalət mühakiməsinə ictimai etimadın təmin edilməsi ilə bağlıdır. Məhz məhkəmə hakimiyyətinin müstəqilliyi əhalinin bütövlükdə hakimiyyətdə inam və etimadını artıran əsas amillərlər biri kimi çıxış edir [14, s. 16].

S.İ. Afanasyeva qeyd edir ki, hakimlərin müstəqilliyi müxtəlif obyektiv və subyektiv amillərin təsiri altında formalaşır. Bu amillər kompleks qaydada mövcud olmalı və hakimlərin yalnız Konstitusiya və qanunlara tabeçiliyini; hakimlərə dövlət hakimiyyəti orqanları, yerli özünü idarəetmə orqanları, ictimai birliklər, vəzifəli şəxslər və vətəndaşlar tərəfindən istənilər formada təsirinin istisna edilməsini; məhkəmə işlərinə baxarkən hakimlərin daxili inama görə hərəkər etmək azadlığını təmin etməlidir [8, s. 7].

L.V. Şelomanovaya görə, hakimlərin müstəqilliyi dedikdə, demokratik dövlətin konstitusion quruluşunun elə bir prinsipi başa düşülməlidir ki, bu prinsipə əsasən, peşəkar hakimlər və ədalət mühakiməsinin həyata keçirilməsində iştirak edən digər şəxslər təşkilati cəhətdən xüsusiləşmiş və siyasi xadimlər, dövlət orqanları, çəkişən tərəflər və digər maraqlı şəxslər tərəfindən məhkəmə hakimiyyətinin Konstitusiya və qanunvericiliklə təsbit edilmiş səlahiyyətlərinin realizəsinə göstərilə biləcək hər cür təsirdən müdafiə edilmiş olmalıdırlar. Məhkəmə hakimiyyətinin üçüncü şəxslər tərəfindən hüquqazidd təsirinə qarşı bu cür müdafiə altına alınmış vəziyyəti bunun üçün zəruri olan maddi-hüquqi və prosedur təminatları yaradan geniş konstitusion-hüquqi institutlar sistemi ilə təmin edilməlidir [19, s. 8].

S.S. Zaxarovun göstərdiyi kimi, geniş mənada məhkəmə orqanlarının müstəqilliyi onların autentik olmalarını (yəni özünəməxsus dəyər və prinsiplərə əsaslanaraq, bu dəyər və prinsiplərə sadiq qalmaqla, hakimiyyətin digər qollarını təqlid etmədən, onların səlahiyyətlərini mənimsəmədən və öz səlahiyyətlərini özgəninkiləşdirmədən mövcud olma və fəaliyyət göstərmə qabiliyyəti – müəllif), hakimiyyətin digər qollarından idarədaxili asılılılıqda olmamalarını, digər dövlət orqanları qarşısında hesabatlılıq öhdəliyi daşımamalarını ehtiva edir [11, s. 17].

Dar mənada isə hakimin müstəqilliyi ideyasına onun statusunun və ya fəaliyyətinin konkret aspektinə münasibətdə diqqət yetirmək olar. Məsələn, biz, hakimin müstəqilliyi ideyasına sırf onun cinayət-prosessual fəaliyyəti prizmasından baxsaq, bu zaman müəyyən edilmiş xüsusiyyətlər, hakimin dar anlamda, bizim situasiyamızda cinayət-prosessual anlamda müstəqilliyinin elementləri kimi çıxış edəcəkdir. Dar (cinayət-prosessual) mənada, hakimlərin müstəqilliyinə məhkəmə hakimiyyətinin təşkil edilməsinin və fəaliyyət göstərməsinin konstitusion prinsipi miqyasında deyil, cinayət mühakimə icraatının prinsiplərindən biri kimi baxmaq olar.

Məsələn, U.S. İşenko qeyd edir ki, hakimlərin müstəqilliyinə cinayət mühakimə icraatının prinsipi kimi baxdıqda, onun müxtəlif tələblər kimi təzahür olunan növbəti elementlərini fərqləndirmək mümkündür:

- hakimlərin Konstitusiyaya, qanunlara və digər normativ-hüquqi aktlara dönmədən əməl etmələri şəraitində fəal (aktiv) və öz iradəsi ilə hərəkət edən (sərbəst) olmasına dair tələb;

- məhkəmə qərarlarının hakimlərin daxili inamına əsasən və istənilən təsirin istisna edildiyi bir şəraitdə qəbul edilməsinin təmin edilməsinə yönəlmiş hakimlərin yüksək statusunun qorunub-saxlanmasına dair tələb;

- hakimlərə dövlət orqanları, vətəndaş cəmiyyəti institutları, digər orqanlar və təşkilatlar, vəzifəli şəxslər və ya vətəndaşlar tərəfindən istənilən təsirin istisna edilməsinə dair tələb;

- qanunla müəyyən edilmiş hərəkətlərin mütləq həyata keçirilməli olması haqqında tələb [12, s. 15].

M.İ. Kazarina göstərir ki, birinci instansiya məhkəmələri tərəfindən cinayət işlərinə baxılarkən hakimlərin müstəqilliyi prinsipinin realizə edilməsinin prosessual təminatları sisteminə növbətilər aiddir: hakim tərəfindən sübutların bilavasitə tədqiq edilməsi öhdəliyi; sübutların qiymətləndirilməsində hakimin müstəqilliyi; qərarların müşavirə otağında çıxarılması qaydaları və müşavirə otağında bildirilən firkilərin yayılmasının yolverilməzliyi (müşavirə otağı sirri); hakimin xüsusi rəydə qalma hüququ; hakimə və hakimin özü-özünə etiraz etmə imkanları. M.İ. Kazarina tərəfindən həmçinin hakimlərin müstəqilliyi prinsipinin realizə edilməsinin cinayət-prosessual təminatlarının sistemi cinayət-prosessual forma və bu formaya əməl edilməsinin prosessual nəticələri prizmasından aşağıdakı qaydada təsnif edilmişdir:

1) imperativ xarakterli təminatlar – bu təminatlara əməl edilməməsinin prosessual nəticəsi qəbul edilmiş qərarın ləğv edilməsidir. Bu təminatlara sübutların hakim tərəfindən bilavasitə tədqiqi; sübutların hakim tərəfindən müstəqil qiymətləndirilməsi; qərarların müşavirə otağında qəbul edilməsi qaydası və müşavirə otağının sirrinin yayılmasının yolverilməzliyi aiddir.

2) dispozitiv xarakterli təminatlar – bu təminatlar, bir qayda olaraq, subyektiv hüquq kimi təsbit edildikləri üçün onlara əməl edilməməsi üçün hər hansı neqativ prosessual nəticə nəzərdə tutulmamışdır. Məsələn, hakimin xüsusi rəydə qalmaq hüququ dispozitiv xarakterli təminatdır və hakimin bu hüququndan könüllü olaraq istifadə etməməsi heç bir mənfi hüquqi nəticə yaratmır;

3) qarışıq xarakterli təminatlar – bu təminatlar adətən bir tərəf üçün prosessual hüquq, digər tərəf üçün prosessual vəzifə xarakteri kəsb edir. Bununla belə, bu tipli təminatlara da əməl edilməməsi neqativ xarakterli prosessual nəticələrə yol açа bilər. Məsələn, hakimə etiraz bir tərəfdən cinayət prosesi iştirakçıları üçün subyektiv hüquqdursa, digər tərəfdən kifayət qədər əsaslar mövcud olduğunda hakimin özünün özünə etiraz etməsi artıq sonuncu üçün prosessual öhdəlik kimi çıxış edir və bu anlamda, prosessual öhdəliyə əməl edilməməsi nəticəsində qəbul edilmiş prosessual qərarlar ləğv edilməli olacaqdır [13, s. 12-13].

İ.A. Qizatullin də vurğulayır ki, hakimlərin müstəqilliyi çoxplanlı sosial-hüquqi fenomen olub, müəyyən prosessual məzmuna da malikdir. Hakimlərin müstəqilliyinin prosessual məzmunu daha çox onlar tərəfindən konkret cinayət işlərinə baxılarkən sərbəst davranmaq imkanlarında təzahür olunur. Hakimlərin müstəqilliyinin prosessual (prosedur xarakterli) təminatları bu müstəqilliyin təmin edilməsində məhkəmə hakimiyyətinin konstitusion əsaslarından heç də az əhəmiyyət kəsb etmir. Hakimin müstəqilliyinin cinayət-prosessual təminatlarının təkmil sistemi hakimlər üçün bir tərəfdən məhkəmə mülahizəsinin realizə edilməsində sərbəstliyi, digər tərəfdən isə hakim özbaşınalığının qarşısının alınmasını təmin edir, çünki hakimlərin üzərinə qəbul etdikləri qərarları əsaslandırmaq öhdəliyi qoyur [10, s. 8-9].

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Ergül E. Türk yargı sistemi dersleri. Ankara: Adalet Yayınevi, 2022, 187 s.

2. Ertaş T. Yasama, yürütme ve yargı organları arasındaki modern ilişkiler. Ankara: Seçkin Yayınevi, 2025, 472 s.

3. Kan M., Kantar G. Türkiye ve Azerbaycanda güçler ayrılığı ilkesinin anayasalar özelinde karşılaştırılması // Manas Sosyal Araştırmalar Dergisi, 2025, № 14 (1), s. 393-408.

4. Okusal A. Tam bağımsız yargı ve tek celsede adalet. Ankara: Adalet Yayınevi, 2010, 152 s.

5. Özkan A. Devlet teorisinde kuvvetler ayrılığının doğuşu: Locke ve Montesquıeu // Yıldırım Beyazıt Hukuk Dergisi, 2019, № 01, s. 35-60.

6. Tutumlu M. Yargı felsefesi üzerine. Ankara: Seçkin Yayınevi, 2020, 472 s.

7. Архипкин И.В. Правовые принципы как основа правового статуса специального субъекта (на примере статуса судьи) // Российский судья, 2024, № 5, с. 34-39.

8. Афанасьева С.И. Конституционно-правовые гарантии принципа независимости судей в Российской Федерации. Автореферат диссертации кандидата юридических наук. Москва, 2003, 25 с.

9. Буров М.В. Конституционные принципы статуса судей в Российской Федерации // Студенческий вестник, 2019, № 39-2 (89), с. 5-6.

10. Гизатуллин И.А. Процессуальные проблемы реализации независимости судей в судебном разбирательстве по уголовным делам. Автореферат диссертации кандидата юридических наук. Уфа, 2019, 21 с.

11. Захаров С.С. Самостоятельность и независимость правосудия как базовые конституционные принципы. Автореферат диссертации кандидата юридических наук. Белгород, 2019, 23 с.

12. Ищенко У.С. Независимость судей как принцип уголовного судопроизводства. Автореферат диссертации кандидата юридических наук. Нижний Новгород, 2021, 33 с.

13. Казарина М.И. Процессуальные гарантии реализации принципа независимости судей при рассмотрении уголовных дел в суде первой инстанции в общем порядке. Автореферат диссертации кандидата юридических наук. Томск, 2020, 28 с.

14. Кравцова Л.Е. Гарантии конституционного принципа независимости судебной власти как основы организации её деятельности в Российской Федерации. Автореферат диссертации кандидата юридических наук. Москва, 2025, 35 с.

15. Парсалашвили Г.С., Иванченко Е.А. Проблема соблюдения статуса судьи // Студенческий вестник, 2017, № 20-1 (20), с. 68-70.

16. Пирова Р.Н. Теория разделения властей: история возникновения и современные вызовы // Евразийский юридический журнал, 2026, № 1 (212), с. 77-78.

17. Рогачевская Ю.Е. История возникновения теории разделения властей // Студенческий форум, 2022, № 8-1 (187), с. 61-63.

18. Срето Н. Судебное право. Москва: Издательство Российского государственного торгово-экономического университета, 2012, 565 с.

19. Шеломанова Л.В. Независимость судей как конституционный принцип правосудия. Автореферат диссертации кандидата юридических наук. Белгород, 2013, 23 с.

Ахундов Фуад Натик оглу,
докторант кафедры уголовного процесса
Бакинского государственного университета

НЕЗАВИСИМОСТЬ СУДЬИ В КОНТЕКСТЕ ЕГО СПЕЦИАЛЬНОГО СТАТУСА

РЕЗЮМЕ

Независимость судебной власти, лежащая в основе принципа верховенства права, имеет важнейшее значение для функционирования демократии и соблюдения прав человека. Независимость судебной власти подразумевает как внешнюю, так и внутренную независимость судьи. Судья должен быть защищен от вмешательства со стороны исполнительной власти, политических партий, СМИ и любых других лиц. Всякое давление на суд должно преследоваться по закону. Внутренная независимость судебной власти аодразумевает независимость самого судьи от других судей и председателей судов. Никто не имеет права указывать, какое именно решение нужно принять по конкретному делу. Чтобы судья мог принимать непопулярные, но законные решения, он обладает иммунитетом, согласно которому его нельзя просто так привлечь к уголовной или административной ответственности, и не может быть смещен с должности или произвольно уволен. В данной статье эти и другие вопросы относительно независимости судьи в контексте его специального статуса были рассмотрены автором.

Akhundov Fuad Natig,
Doctoral student, Department of Criminal Procedure,
Baku State University

INDEPENDENCE OF A JUDGE IN THE CONTEXT OF HIS SPECIAL STATUS

SUMMARY

The independence of the judiciary, which underpins the rule of law, is essential for the functioning of democracy and respect for human rights. The independence of the judiciary implies both external and internal independence of the judge. The judge must be protected from interference by the executive, political parties, the media and any other persons. All pressure on the court should be prosecuted. The internal independence of the judiciary implies the independence of the judge himself from other judges and court presidents. No one has the right to indicate what kind of decision needs to be made in a particular case. In order for a judge to make unpopular but legal decisions, he has immunity, according to which he cannot be simply brought to criminal or administrative responsibility, and cannot be removed from office or arbitrarily dismissed. This article examines these and other issues regarding the independence of a judge in the context of his special status.

Redaksiyaya daxilolma tarixi: 28.07. 2026
Təkrar işlənməyə göndərilmə tarixi: 09.08. 2026
Çapa qəbul olunma tarixi: 23.08.2026